# 5. HÜQUQ MÜHAFİZƏ ORQANLARI

## Xülasə

Azərbaycanda hüquq mühafizə orqanları islahatlar prosesindən keçir. İslahatların müsbət nəticələri hiss olunsa da, hüquq mühafizə orqanlarının səmərəliliyinin və əhalinin arasında etimadının artırılmasına ehtiyac qalmaqdadır.

Azərbaycanda səkkiz hüquq mühafizə orqanı var. Əsas hüquq mühafizə orqanları Azərbaycan Respublikasının Prokurorluğu, ölkə polisinə rəhbərlik edən Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyidir.

Məhkəmə hakimiyyətinin tərkib hissəsi olan Azərbaycan Respublikasının Prokurorluğu istintaq aparmaq, əməliyyat-axtarış tədbirləri həyata keçirmək, digər hüquq mühafizə orqanları tərəfindən qanunların icra və tətbiq edilməsinə nəzarət etmək və məhkəmələrdə dövlət ittihamını müdafiə etmək, məhkəmədə iddia qaldırmaq; məhkəmə qərarlarından protest vermək səlahiyyətlərinə sahibdir. Daxili İşlər Nazirliyi ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində mərkəzi icra hakimiyyəti orqanıdır.

Hüquq mühafizə orqanlarında korrupsiyadan tam azad olmasalar da, son illərdə hökumətin polis sistemində mövcud vəziyyəti yaxşılaşdırmaq istiqamətində atdığı addımlar özünü doğruldub və bunlar Transparency International təşkilatının 2013-cü Qlobal Korrupsiya Barometrində öz əksinin tapıb.

Qanuna görə, hüquq mühafizə oranları müstəqil olsalar da, bir sıra ekspertlərin rəyinə görə, qanunun icrasına nəzarət və istintaq fəaliyyətində siyasi qüvvələr və ya hökumət tərəfindən, təsirlərin olması ehtimalı mövcuddur.

Bu hesabatın hazırlanması prosesində Prokurorluq və Daxili İşlər Nazirliyi (DİN) kifayət qədər məlumat təqdim etsələr də, Milli Təhlükəsizlik Nazirliyi (MTN) bizim sorğumuzu cavablandırmayıb. Bundan əlavə, həm Prokurorluq, həm də Daxili İşlər Nazirliyi MTN-dən fərqli olaraq öz fəaliyyətləri ilə bağlı məlumatları hər altı aydan bir ictimaiyyətə və mediaya təqdim edir və öz rəsmi İnternet saytlarında dərc edirlər.

Aşağıdakı qiymətləndirmə sütunu Azərbaycanın iki əsas hüquq mühafizə orqanını onların fəaliyyət qabiliyyəti, idarə olunması və Milli Dürüstlük Sistemindəki rollarına görə dəyərləndirir. Haqqında praktiki olaraq heç bir informasiya əldə etmək mümkün olmadığından MTN bu dəyərləndirməyə daxil edilməyib.

### HÜQUQ MÜHAFIZƏ ORQANLARI

#### Ümumi qiymət 61/100

| MEYAR | İNDİKATOR | QANUN | TƏCRÜBƏ |
|---|---|---|---|
| Fəaliyyət qabiliyyəti 75/100 | Resurslar | - | 100 |
| | Müstəqillik | 75 | 50 |
| İdarəçilik 58/100 | Şəffaflıq | 75 | 50 |

| | | | |
|---|---|---|---|
| | Hesabatlılıq | 75 | 50 |
| | Dürüstlük | 75 | 25 |
| Şəfafflıq sistemində rol 50/100 | Korrupsiya istintaqı | 50 | |

## Struktur və təşkilatlanma

Azərbaycanda səkkiz hüquq mühafizə orqanı var. Əsas hüquq mühafizə orqanları Azərbaycan Respublikasının Prokurorluğu, ölkə polisinə rəhbərlik edən Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyidir.

Məhkəmə hakimiyyətinin tərkib hissəsi olan Azərbaycan Respublikasının Prokurorluğu istintaq aparmaq, əməliyyat-axtarış tədbirləri həyata keçirmək, digər hüquq mühafizə orqanları tərəfindən qanunların icra və tətbiq edilməsinə nəzarət etmək və məhkəmələrdə dövlət ittihamını müdafiə etmək, məhkəmədə iddia qaldırmaq; məhkəmə qərarlarından protest vermək səlahiyyətlərinə sahibdir.[1] “Prokurorluq haqqında” qanuna[2] görə Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının Baş Prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

Daxili İşlər Nazirliyi ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində mərkəzi icra hakimiyyəti orqanıdır.[3] Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat, əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır[4]. Korrupsiya hallarının araşdırılmasını Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi həyata keçirir.

Yuxarıda sadalanan üç orqan geniş əhatəli səlahiyyətlərə malikdir, digər beş hüquq mühafizə orqanı isə öz spesifik sahələrində baş verən cinayətləri daxili təhqiqatlar idarələri vasitəsilə araşdırmaq üzrə səlahiyyətləndirilib. Bu dövlət orqanlarına aşağıdakılar aiddir: Vergilər Nazirliyi, Gömrük Komitəsi, Ədliyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Fövqəladə Hallar Nazirliyi. Hesab edilir ki, bu cür əks mərkəzləşmə effektiv istintaq fəaliyyətinin qurulmasına mane olur[5].

## Qiymətləndirmə

## Resurslar (təcrübədə): 100

*Hüquq mühafizə orqanları səmərəli fəaliyyət göstərmələri üçün adekvat maliyyə resurslarına, kadrlara və infrastruktura təcrübədə nə dərəcədə sahibdir?*

Bütün hüquq mühafizə orqanları öz əsas vəzifələrini və mandatlarını həyata keçirmək üçün kifayət qədər büdcə vəsaitlərinə sahibdirlər. Daxili İşlər Nazirliyindəki məvaciblər qonşu ölkələrin müvafiq

[1] Azərbaycan Respublikasının Konstitusiyası , 133-cü maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), http://www.constcourt.gov.az/laws/26
[2] “Prokurorluq haqqında” Azərbaycan Respublikası qanunu, 2-ci maddə
[3] Daxili İşlər Nazirliyinin rəsmi İnternet saytı, http://www.mia.gov.az/
[4] Milli Təhlükəsizlik Nazirliyinin rəsmi İnternet saytı, http://www.mns.gov.az/en/
[5] Müstəqil hüquqşünas- Samir İsayevin hesabat müəllifinə müsahibəsi, 22 Aprel 2014-cü il

nazirliklərindəki məvaciblərdən daha yüksəkdir[6]. Bu sahədəki ən əsas çatışmazlıqlardan biri Daxili işlər Nazirliyinin əməkdaşları və onların ailə üzvlərinin tam tibbi sığorta ilə təmin olunmamalarıdır.[7] Hətta qonşu Gürcüstanda belə bu hal aradan qaldırlıb və polis əməkdaşları və ailələri tam olaraq tibbi sığortaya cəlb olunublar. Son 20 il ərzində Daxili İşlər Nazirliyinə ayrılan büdcə vəsaitləri 12 dəfə artmışdır[8]. Ümumilikdə, bu vəsaitin 81%-ini DİN əməkdaşlarının məvacibləri və digər sosial müavinətlər təşkil edir. Bununla yanaşı, DİN həm də yeni və müasir avadanlıqlarla təchiz edilir[9].

Azərbaycan Respublikası Prokurorluğu da müasir avadanlıqlarla təchiz edilmiş, peşəkar kadrlarla formalaşdırılmışdır. Misal olaraq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsini göstərmək olar. Belə ki, idarənin maddi-texniki təminatının gücləndirilməsi və işçi heyətinin yeni kadrlarla komplektləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülmüş, 30 sentyabr 2013-cü il tarixdə Baş İdarənin yeni inzibati binasının açılış mərasimi keçirilmişdir. [10].

Hüquq mühafizə orqanlarının əməkdaşları mütəmadi olaraq beynəlxalq, regional və yerli tədbirlərə qatılır. Beynəlxalq Antikorrupsiya Akademiyası və BMT, NATO, ATƏT kimi beynəlxalq təşkilatlar tərəfindən keçirilən təlim kursları da daxil olmaqla bir sıra təlimlərlə cəlb edilirlər[11],[12].

## Müstəqillik (qanunda): 75

*Hüquq mühafizə orqanları qanunlara əsasən nə dərəcədə müstəqildir?*

Qanunvericilik hüquq mühafizə orqanlarının bitərəfliyinin və müstəqilliyinin təmin edilməsi ilə bağlı kifayət qədər geniş öhdəliklər müəyyən edir. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi göstərir ki, Prokurorluğun fəaliyyətinin əsas prinsiplərindən biri siyasi bitərəflikdir[13]. "Prokurorluq haqqında" Qanunun 36-cı maddəsində qeyd edilmişdir ki, prokurorluq işçisi xidməti fəaliyyətində müstəqildir və bu Qanunda nəzərdə tutulmuş hallardan və qaydadan başqa vəzifəsindən kənarlaşdırıla, azad oluna və ya prokurorluqdan xaric edilə bilməz. Prokurorluq işçisinin xidməti vəzifələrinin icrasına mane olmaq, onun şərəf və ləyaqətini alçaltmaq, hədələmək, müqavimət və zorakılıq göstərmək, özünün və ailə üzvlərinin həyatına, səhhətinə və əmlakına qəsd etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Polis haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi "insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində" polisin fəaliyyətini tənzimləyir və göstərir ki, polis qulluq mövqeyinə və siyasi partiya mənsubiyyətinə baxmayaraq bütün şəxslərin hüquqlarını və qanuni mənafelərini qoruyur[14]. Qanuna görə polis əməkdaşları siyasi cəhətdən bitərəf olmalı, heç bir siyasi partiyanın üzvü olmamalıdır.[15] Bundan başqa qanunla səlahiyyət verilmiş şəxslərdən başqa, hər hansı şəxsin istənilən

---

[6] Azərbaycan Respublikası Daxili İşlər Nazirinin Müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyevin 002-659-1213 nömrəli, 28 iyun 2013 tarixli məktubu.
[7] Müstəqil hüquqşünas- Samir İsayevin hesabat müəllifinə müsahibəsi, 22 Aprel 2014-cü il
[8] Daxili İşlər Nazirliyinin rəsmi İnternet saytı, http://www.mia.gov.az/?/en/news/view/474/
[9] Azərbaycan Respublikası Daxili İşlər Nazirinin Müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyevin 002-659-1213 nömrəli, 28 iyun 2013 tarixli məktubu.
[10] Korrupsiyaya qarşı Mübarrizə İdarəsinin rəisi Kamran Əliyev imzası ilə "Şəffaflıq Azərbaycan" təşkilatının məktubuna 03.04.2014-cü il tarixli, 02-113ÇIX-14 nömrəli cavab məktubu
[11] Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevin 23 iyul 2013-cü il tarixində Baş Prokurorluğun təlim mərkəzində vətəndaş cəmiyyəti və mətbuata 2013-cü ilin birinci yarısındakı fəaliyyətlər haqqında təqdimatı.
[12] Daxili İşlər Nazirliyinin Şəffaflıq Azərbaycan təşkilatına 002 – 639-1214 nömrəli , 30 may 2014-cü il tarixli məktubu
[13] Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999-cu il , www.genprosecutor.gov.az
[14] Polis haqqında Azərbaycan Respublikasının Qanunu, 28 oktyabr 1999, (son dəyişikliklərin tarixi – 23 fevral 2010), www.mia.gov.az
[15] Polis haqqında Azərbaycan Respublikasının Qanunu, 32-ci maddə, 28 oktyabr 1999, (son dəyişikliklərin tarixi – 23 fevral 2010)

səbəbdən polisin qanuni fəaliyyətinə məhdudiyyət qoyması, təsir və müdaxilə etməsi yolverilməzdir.[16] Hüquq-mühafizə orqanlarının əməkdaşları öz hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə məhkəməyə müraciət etmək hüququna malikdir. [17],[18]

Prokurorluq orqanlarına qəbul test imtahanları əsasında müsabiqə yolu ilə həyata keçirilir. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsinin ümumi qaydaları Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapıb.[19] Test imtahanını Tələbə Qəbulu Üzrə Dövlət komissiyası keçirir. Müsahibə isə Baş Prokurorluğun 7 nəfərdən ibarət Müsabiqə Komissiyası tərəfindən aparılır. Müsabiqənin nəticəsi ilə razı olmayan namizədlər Azərbaycan Respublikasının Baş prokuroruna şikayət edə bilərlər.[20] 2002-ci ildən başlayaraq Prokurorluğa qəbul test imtahanı əsasında aparılmış, hazırda prokurorluq işçilərinin 52%-i test imtahanlarını uğurla keçmiş gənc kadrlardan ibarətdir.[21] Bu isə təqdirəlayiq haldır. İmtahanların yazılı hissəsinin vətəndaş cəmiyyətinin üzvlərinin monitorinqi altında, dürüst və şəffaf şəkildə keçirilməsi faktı hamı tərəfindən qəbul edilsə də, yekun müsahibələr bağlı qapılar arxasında baş tutur və işə qəbulun meyarları qeyri-müəyyən olaraq qalır[22].

Daxili işlər orqanlarında xidmətə qəbul test imtahanlarından və söhbətdən ibarət olan müsabiqə əsasında aparılır. Müsabiqədə iştirak etmək ilə bağlı bütün qaydalar və tələblər “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamədə qeyd olunub. Müsabiqədə polis əməkdaşının müvafiq təhsilə və fiziki göstəricilərə malik olması əsas götürülür. [23] Şəffaflığın təminatı üçün müsahibədə namizədlərin valideynlərinin də iştirakına şərait yaradılsa da[24], müsabiqə prosesi bütünlüklə vətəndaş cəmiyyəti üçün qapalıdır. DİN əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi və karyerada yüksəlişi müvafiq Əsasnaməyə əsasən keçirilən attetasiya əsasında aparılır.[25] Bununla yanaşı polis əməkdaşlarının karyerada yüksəlişini təmin etmək məqsədilə DİN-in Q12-001-13 nömrəli 19.04.2013-cü il tarixli qərarı ilə Təlimat təsdiq edilmişdir.[26]

Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinə görə, Baş Prokuroru Milli Məclisin razılığı əsasında Prezident təyin edir və vəzifədən azad edir[27]. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsinə görə[28] Baş Prokurorun səlahiyyət müddəti beş ildir. Əvvəllər bir vəzifəyə eyni şəxs iki dəfədən artıq təyin edilə bilməzdi. Lakin 2009-cu ilin 20 oktyabrında Prokurorluq haqqında qanuna dəyişiklik edildi[29] və prokurorların təyinatına tətbiq olunan müddət məhdudiyyəti aradan qaldırıldı. Bununla belə, müddət məhdudiyyətinin aradan qaldırılması ərazi və ixtisaslaşdırılmış prokurorlara şamil edilmədi[30].

---

[16] Polis haqqında Azərbaycan Respublikasının Qanunu, 8-ci maddə, 28 oktyabr 1999, (son dəyişikliklərin tarixi – 23 fevral 2010)
[17] Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu, 37-ci maddə, 7 dekabr 1999
[18] Polis haqqında Azərbaycan Respublikasının Qanunu, 34-cü maddə, 28 oktyabr 1999, (son dəyişikliklərin tarixi – 23 fevral 2010), www.mia.gov.az
[19] Azərbaycan Respublikasının Konstitusiyası, 109-cu maddəsinin 32-ci bəndi
[20] Azərbaycan Respublikası Baş Prokurorunun 03 dekabr 2007-ci il tarixli 10/101 nömrəli əmri ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları”nın 2-ci bəndi www.genprosecutor.gov.az
[21] Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev imzası ilə “Şəffaflıq Azərbaycan” təşkilatının məktubuna 03.04.2014-cü il tarixli, 02-113ÇIX-14 nömrəli cavab məktubu
[22] İşə qəbul prosesinin “Şəffaflıq Azərbaycan” təşkilatı tərəfindən aparılan monitorinqinin nəticələri.
[23] Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə www.mia.gov.az
[24] Daxili İşlər Nazirliyinin Şəffaflıq Azərbaycan təşkilatına 002 – 639-1214 nömrəli , 30 may 2014-cü il tarixli məktubu
[25] Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamənin 44-cü maddəsi, www.mia.gov.az
[26] Daxili İşlər Nazirliyinin Şəffaflıq Azərbaycan təşkilatına 002 – 639-1214 nömrəli , 30 may 2014-cü il tarixli məktubu
[27] Azərbaycan Respublikasının Konstitusiyası, 133-cü maddə, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi – 27 noyabr 1995), http://www.constcourt.gov.az/laws/26
[28] Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999, www.genprosecutor.gov.az
[29] Prokurorluq haqqında qanun, 16-cı maddə, 7 dekabr 1999, www.genprosecutor.gov.az
[30] Azerbaijani Parliamentary Comitee Adopts Law on Removing Limitation on Prosecutor General's Appontment, 5 october 2009, Trens News Agency

Dövlət ittihamçılarının müstəqilliyinin təmin edilməsi məqsədilə, Cinayət-Prosessual Məcəllənin 84.4-cü maddəsində göstərilir ki, "Cinayət işi üzrə ibtidai istintaq aparmış prokuror məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edə bilməz." Dövlət ittihamının müdafiəsini isə Baş Prokurorluğun müstəqil idarəsi- Dövlət İttihamının Müdafiəsi idarəsi həyata keçirir.

## Müstəqillik (təcrübədə): 50

*Hüquq mühafizə orqanları təcrübədə nə dərəcədə müstəqildir?*

Qanunvericiliyə əsasən hüquq mühafizə orqanları kənar təsirlərdən uzaq fəaliyyət həyata keçirməlidir, lakin bir sıra ekspertlərin rəyinə görə, istintaq və hüquq mühafizə fəaliyyətlərinə siyasi qüvvələr və ya hökumət tərəfindən, təsirlərin olması ehtimalı mövcuddur[31].

Hökumət hüquq mühafizə orqanlarının vasitəsilə 2012-ci ildə bir neçə etiraz aksiyasını dağıtmış[32] (bu aksiyalar bir çox hallarda hakimiyyət orqanları ilə əvvəlcədən razılaşdırılmadan keçirilib) və dinc etirazçılara qarşı lazımsız güc tətbiq etmişdir[33]. 2013-cü ildə də siyasi fəalların fərqli itihamlarla həbsi prosesi davam etmişdir[34].

Azərbaycanda bəraət hallarının da aşağı olması[35], hakimlərin əksərən məhkəmə zamanı prokurorların ittihamını dəstəkləməsi ilə bağlıdır.[36] Əgər Birləşmiş Krallıq ilə müqayisə etsək, 2010-cu ildə bu ölkədə ümumi işlərin 7.17%-nə bəraət verilibsə, Azərbaycanda bu rəqəm yalnız 0.25%-dir[37].

Həm müstəntiqin, həm də məhkəmədəki prokurorun birbaşa olaraq eyni təsisata bağlı olması, bəzi hallarda dövlət ittihamçılarının müstəqillik imkanlarını məhdudlaşdırır, onların cinayət işində maraqlı tərəf olmaq riski ilə qarşı-qarşıya qoyur.

Hüquq Mühafizə orqanlarının tam müstəqilliyinin təminatı istiqamətində islahatlar davam etdirilməlidir.

## Şəffaflıq (qanunda): 75

*Hüquq mühafizə orqanları haqqında ictimaiyyətin informasiya əldə etməsini təmin edən hüquqi müddəalar nə dərəcədə mövcuddur?*

2005-ci ildə Azərbaycan "İnformasiya əldə etmək haqqında" qanun qəbul edərək Konstitusiyanın 50-ci maddəsinin də tələb etdiyi kimi informasiyaya azad, məhdudiyyətsiz və bərabər çıxışı təmin etmək, eləcə də dövlət idarəetməsində vətəndaş nəzarətinə şərait yaratmaq məqsədi ilə hüquqi çərçivəni formalaşdırıb[38]. Hüquq mühafizə orqanları rəhbərlərinin əmlak və gəlirləri barəsində mütəmadi deklarasiya təqdim etmələrini tələb edən qanun olsa da, bu informasiya qanunun tələbinə görə ictimaiyyətə açıqlana bilməz[39]. Əlavə qanunverici normaların mövcud olmaması da bu qanunun təcrübədə tətbiqinə imkan yaratmır[40].

---

[31] Hüquqi Dövlət Araşdırmaları Fondunun Prezidenti -Müzəffər Baxışovun hesabat müəllifinə müsahibəsi, 17 may 2013.
[32] World Report 2013: Azerbaijan, by Human Rights Watch, www.hrw.org
[33] Country Reports on Human Rights Practices for 2013: Azerbaijan, US Department of State, http://www.state.gov/j/drl/rls/hrrpt/humanrightsreport/#wrapper
[34] Nations in Transit 2013: Azerbaijan, Freedom House, http://www.freedomhouse.org/report/nations-transit/2013/azerbaijan
[35] Rule of Law, by Monica Martinez, Head Rule of Law, OSCE-Baku, in Spotlight on Azerbaijan, ed. by Adam Hug, publication by the Foreign Policy Center, UK, May 2012, www.fpc.org.uk
[36] Hüquqi Dövlət Araşdırmaları Fondunun Prezidenti- Müzəffər Baxışovun hesabat müəllifinə müsahibəsi, 17 may 2013.
[37] Trial Monitoring Report 2010 OSCE Office in Baku, www.osce.org.baku
[38] İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr 2005, e-qanun.az/
[39] Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 24 iyun 2005, www.genprosecutor.gov.az
[40] Bu məsələ dövlət qulluğu haqqında hesabatda ətraflı müzakirə olunur.

Cinayət-Prosessual Məcəllənin 27-ci maddəsi cinayət mühakimə icraatının aşkarlığını təmin edir, yəni dövlət, peşə, kommersiya, şəxsi və ailə sirlərinin qorunması halları istisna olmaqla cinayət işləri və cinayət təqibi ilə bağlı materiallar ictimaiyyətə açıq olmalıdır[41]. Digər tərəfdən də 2012-ci ilin 12 iyununda Milli Məclis şirkətlərin məlumatlarına ictimai çıxışı məhdudlaşdıran qərar qəbul edib[42]. Bundan sonra şirkətlərin məlumatları yalnız həmin şirkətlərin razılığı əsasında ictimaiyyətə təqdim oluna bilər. Şirkətlərin məlumatlarının açıqlanmasına tətbiq edilən bu məhdudiyyət isə hüquq mühafizə orqanları tərəfindən istintaqı aparılan bir çox işlərə, o cümlədən dövlət məmurlarının əmlakı və gəlirləri, korrupsiya əməlləri ilə bağlı olan işlərə ictimaiyyətin çıxışını aradan qaldırır. Millət vəkili Asim Mollazadə bu dəyişikliyə etiraz edərək bildirmişdi ki, qanunun dəyişdirilməsi korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizəyə mənfi təsir göstərəcək və Avropa ölkələrinin qanunvericiliyində də heç bir oxşar müddəaya rast gəlinmir[43].

"Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanununa görə [44] vətəndaşların müraciətlərinə baxılma müddəti qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla və qanunvericiliklə başqa müddət nəzərdə tutulmamışdırsa, bir aydır; əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə baxılma müddəti isə ən geci 15 gündür.

## Şəffaflıq (təcrübədə): 50

*Hüquq mühafizə orqanlarının fəaliyyətləri və qərar qəbulu mexanizmləri təcrübədə nə dərəcədə şəffafdır?*

"İnformasiya əldə etmək haqqında"[45] qanuna əsasən cinayət işi və ya inzibati xətalar haqqında iş üzrə toplanmış informasiya iş məhkəməyə verilənədək və ya işin icraatına xitam verilməsi barədə qərar qəbul edilənədək xidməti istifadə üçün nəzərdə tutulmuş hesab edilir və hüquq mühafizə orqanları bu qanunu əsas gətirərək istintaq prosesinə aid informasiyanı açıqlamırlar. Lakin, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və DİN keçirilmiş əməliyyat tədbirləri, başlanmış və ibtidai istintaqı tamamlanaraq məhkəmələrə göndərilmiş cinayət işləri barədə öz veb səhifələrində və kütləvi informasiya vasitələrində mütəmadi olaraq məlumatlar verir.

67 dövlət orqanının rəsmi İnternet saytlarının monitorinqi əsasında Media Hüququ İnstitutunun 2011-ci ildə hazırladığı "Dövlət qurumlarının onlayn şəffaflıq hesabatı"nda[46] Baş Prokurorluq ən şəffaf qurum kimi birinci yeri tutur. Son illər ərzində Daxili İşlər Nazirliyinin İnternet saytı da xeyli inkişaf etdirilib. DİN-in mütəmadi yenilənən İnternet saytında rəsmi görüşlər, kriminal xəbərlər, iş elanları, müxtəlif xidmətlərə görə tariflər və müvafiq müraciət formaları yerləşdirilir. DİN öz saytında həm də illik və aralıq statistik informasiya ilə birgə hüquq mühafizə orqanlarının cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizlik və ictimai asayişi təmin etmə sahəsində işlərinin təhlilini dərc edir. Nazirlik mobil telefon vasitəsilə onların saytına giriş imkanı yaratmaq üçün hal-hazırda yeni alətlər üzərində işləyir[47].

---

[41] Cinayət-Prosessual Məcəllə, 1 sentyabr 2000, www.e-qanun.az
[42] "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Kommersiya sirri haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlara 12 iyun 2012-ci il tarixində edilmiş dəyişikliklər.
[43] Information about company's founders to e considered confidential in Azerbaijan, Trens News Agency, 12 June 2012, http://en.trend.az/news/society/2036577.HTML
[44] Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Azərbaycan Respublikasının Qanununa görə, 10 iyun 1997, www.e-qanun.az
[45] İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası qanunun 35.2.1-ci maddəsi, 30 sentyabr 2005, www.e-qanun.az
[46] Dövlət qurumlarının onlayn şəffaflıq hesabatı, Media Hüququ İnstitutu, dekabr 2011, http://www.mediarights.az/docs/Online%20sheffafliq%20hesabati_2011_dec.pdf
[47] Azərbaycan Respublikası Daxili İşlər Nazirinin Müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyevin 002-659-1213 nömrəli, 28 iyun 2013 tarixli məktubu.

Onlayn qaydada xeyli sayda məlumat verilsə də, ictimaiyyəti daha çox maraqlandıran, korrupsiya və digər hüquq pozuntularına görə cəzalandılmış hüquq mühafizə orqanlarının əməkdaşları barədə ətraflı məlumat verilmir,bunun əvəzinə ümumi, verilən cəzanın sayı və cəza növləri kimi statistik məlumatların əks olunduğu məlumat ictimaiyyətə çatdırılır.

Digər bir problem polis bölmələrində cinayət hallarının qeydiyyatı ilə bağlıdır. Qanunun tələbinə əsasən polis hər bir cinayətin qeydiyyatını aparmalı və bu haqda şikayətçiyə yazılı bildiriş verməlidir. Təəssüf ki, çoxsaylı məlumatlara görə yerli polis bölmələrində cinayət statistikasını azaltmaq məqsədilə vətəndaşların şikayəti əsasında cinayət hallarının qeydiyyatını aparmağa həvəssiz yanaşır [48] ,[49]. Bununla belə, DİN-in 102 nömrəli qaynar xəttinə edilən müraciətlər dərhal qeydiyyata alınır. Qurumdan verilən məlumata görə il ərzində bu xidmətə 13 mindən çox müraciət qəbul olunur. [50]

## Hesabatlılıq (qanunda): 75

*Hüquq mühafizə orqanlarının öz hərəkətlərinə görə hesabat verməsi və məsuliyyət daşımasını təmin edəcək hüquqi müddəalar nə dərəcədə mövcuddur?*

Qanununa əsasən Baş Prokurorluq məhkəmə hakimiyyətinə daxildir və müstəqil struktura malikdir. Prokurorlar cinayət təqibi aparmaq və ya aparmamaq barədə heç bir digər dövlət orqanına izahat verməyə borclu deyillər. Prokuror aktlarından yuxarı prokurora və məhkəmə nəzarətini həyata keçirən məhkəməyə şikayət verilə bilər. Cinayət işinin ədalətli aparılmasına əmin olmaq məqsədilə, təqsirləndirilən şəxs və müdafiəçi cinayət işinin materialları ilə cinayət prosesinin digər iştirakçılarından əvvəl tanış olur və bu tanışlığı birlikdə və ya ayrı-ayrılıqda aparmaq hüququna malikdirlər. [51] Habelə, zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh cinayət işinin materialları ilə öz nümayəndəsi ilə birlikdə tanış olmaq hüququna malikdir.

Polis haqqında qanunun 12-ci maddəsinə görə polis orqanlarının fəaliyyətinə həm daxili (DİN tərəfindən), həm də xarici (Azərbaycan Respublikasının Prezidenti tərəfindən) nəzarət mövcuddur. Polis tərəfindən qanunvericiliyin yerinə yetirilməsinə nəzarət Prokurorluq və məhkəmələrin səlahiyyətindədir[52].

Polis haqqında qanuna əsasən vətəndaşlar polisin özbaşınalığı barəsində inzibati qaydalarla Daxili İşlər Nazirliyinə şikayət edə bilərlər. Bundan əlavə, Ombudsman haqqında qanuna[53] əsasən Ombudsmana da şikayət göndərmək mümkündür. Polis haqqında qanunun 33-cü maddəsinə əsasən polis əməkdaşları öz əməllərinə görə məsuliyyət daşıyırlar, bu əməllərə görə istintaqa cəlb edilə və cinayət təqibinə məruz qala bilərlər.

---

[48] Hüquqi Dövlət Araşdırmaları Fondunun Prezidenti- Müzəffər Baxışovun hesabat müəllifinə müsahibəsi, 17 may 2013.
[49] "Şəffaflıq Azərbaycan" təşkilatının ALAC məlumat bazası.
[50] Daxili İşlər Nazirliyinin Şəffaflıq Azərbaycan təşkilatına 002 – 639-1214 nömrəli , 30 may 2014-cü il tarixli məktubu
[51] AR Cinayət-Prosessual Məcəllə, 285.3-cü maddəsi 1 sentyabr 2000, www.e-qanun.az
[52] Polis haqqında qanun, 28 oktyabr 1999 (son dəyişikliklərin tarixi – 23 fevral 2010), www.mia.gov.az
[53] Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında qanun, 28 dekabr 2001, www.e-qanun.az

Qanunvericiliyə əsasən Prokurorluq digər hüquq-mühafizə orqanları tərəfindən aparılan istintaq, təhqiqat və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunların düzgün icra edilməsinə nəzarət edir[54], lakin bu orqanların desentralizasiyası onlara nəzarəti xeyli çətinləşdirir[55].

## Hesabatlılıq (təcrübədə): 50

*Hüquq mühafizə orqanları öz hərəkətlərinə görə təcrübədə nə dərəcədə hesabat verir və məsuliyyət daşıyırlar?*

Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi kütləvi informasiya vasitələri və QHT-lər üçün yarım illik mətbuat konfransları təşkil edir, öz fəaliyyətlərinə dair illik və yarımillik hesabatlarını təqdim edir[56],[57]. Daxili İşlər Nazirliyi də son illər vətəndaş cəmiyyəti ilə münasibətləri daha da artırıb[58].

DİN qeyd edir ki, qanunları pozduğuna görə polis əməkdaşlarına qarşı sanksiyalar tətbiq edilir[59]. Daxili İşlər Nazirinin müavini bildirir ki, əgər polis əməkdaşları qanunun tələblərini pozarsa, onlar “Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında” Əsasnamənin 114 və 114.1-ci maddələrinə[60] uyğun olaraq xidməti məsuliyyətə cəlb olunurlar. Cinayət məsuliyyətinə cəlb olunma tələb edən hallarda istintaq aparılması üçün iş Baş Prokurorluğa təqdim edilir[61].

12 may 2011-ci il tarixdə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturunda “Daxili təhlükəsizlik xidməti” yaradılmışdır. Bu xidmətə hüquq-mühafizə orqanları əməkdaşlarının korrupsiya hüquqpozmalarının araşdırılması həvalə edilmişdir.[62] 2013-cü ildə Baş Prokurorluğun Daxili təhlükəsizlik xidmətində araşdırılmış 82 müraciət üzrə 55 - cinayət işi başlanmışdır.[63]

Qanun hüquq mühafizə orqanları əməkdaşlarını cinayət məsuliyyətindən azad etməsə də və onların qeyri-qanuni əməllərinə görə məsuliyyət daşıdığını göstərsə də, qeyri-qanuni əməllər törətmiş əməkdaşlar təcrübədə bəzi hallarda öz rəhbərləri tərəfindən müdafiə olunurlar[64]. Təcrübədə isə Proqrorluq əməkdaşları və digər hüquq mühafizə orqanları əməkdaşları, əməliyyat-axtarış tədbirləri zamanı yol verdikləri prosessual pozuntulara görə heç də hər zaman cəzalandırılmırlar[65].

## Dürüstlük (qanunda): 75

*Hüquq mühafizə orqanlarının dürüstlüyü qanunla nə dərəcədə təmin olunur?*

---

[54] AR Cinayət-Prosessual Məcəllə, 1 sentyabr 2000, www.e-qanun.az
[55] Hüquqi Dövlət Araşdırmaları Fondunun Prezidenti- Müzəffər Baxışovun hesabat müəllifinə müsahibəsi, 17 may 2013
[56] Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevin 02/1-2247xio/ 13/168cix nömrəli, 12 iyul 2013-ci il tarixli məktubu.
[57] “Şəffaflıq Azərbaycan” təşkilatının fərdi təcrübəsi
[58] “Şəffaflıq Azərbaycan” təşkilatının fərdi təcrübəsi
[59] 29 İyun 2001-ci il tarixli prezident fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə, 29 İyun 2001-ci il tarixli prezident fərmanı ilə
[60] Azərbaycan Respublikasının Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 29 iyul 2001, http://www.mia.gov.az/index.php?/az/content/196/
[61] Azərbaycan Respublikası Daxili İşlər Nazirinin Müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyevin 002-659-1213 nömrəli, 28 iyun 2013 tarixli məktubu.
[62] Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevin 02/1-2247xio/ 13/168cix nömrəli, 12 iyul 2013-ci il tarixli məktubu.
[63] Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev imzası ilə “Şəffaflıq Azərbaycan” təşkilatının məktubuna 03.04.2014-cü il tarixli, 02-113ÇIX-14 nömrəli cavab məktubu
[64] “Şəffaflıq Azərbaycan” təşkilatının ALAC məlumat bazası.
[65] Hüquqi Dövlət Araşdırmaları Fondunun Prezidenti- Müzəffər Baxışovun hesabat müəllifinə müsahibəsi, 17 may 2013

Hüquq-mühafizə orqanlarının dürüstlüyü qanunla kifayət qədər təmin edilir. Prokurorluq işçiləri üçün etik davranış kodeksi[66] və Daxili İşlər Nazirliyi əməkdaşlarının etik davranış kodeksi[67] uzun müddətdir ki, mövcuddur. Hər iki kodeks maraqlar konfliktini, hədiyyələri və qonaqpərvərlik kimi məsələləri tənzimləyir. Kodekslər tələb edir ki, maraqlar münaqişəsi yaranarsa polis və prokurorluq işçiləri öz səlahiyyətlərindən şəxsi maraqlar üçün sui-istifadə etməməli və öz rəhbərliyini bu barədə məlumatlandırmalıdır[68].

Bununla yanaşı ayrıca olaraq "Polisin post-patrul xidmətinin nizamnaməsi", "Yol-patrul xidməti haqqında", "Polis sahə inspektorlarının və polis sahə rəislərinin işinin təşkilinə dair", "Kütləvi tədbirlər zamanı ictimai asayişin təmin edilməsi" barədə vəzifə təlimatları da mövcuddur və polisin fəaliyyətinin tənzimlənməsində vacib əhəmiyyət daşıyır. [69]

## Dürüstlük (təcrübədə): 25

*Hüquq mühafizə orqanlarının əməkdaşlarının dürüstlüyü təcrübədə nə dərəcədə təmin olunur?*

Bir neçə il bundan əvvəlki dövrlə müqayisədə polisə olan inam artsa da, hüquq-mühafizə orqanlarının, xüsusilə də polis orqanlarının[70],[71] dürüstlüyü təcrübədə heç də arzuolunan səviyyədə deyil. Siravi vətəndaşlar polislərin qanunsuz fəaliyyəti ilə bağlı videolar çəkərək onu internet şəbəkəsində yayırlar. [72],[73] Bununla belə vurğulanmalıdır ki, videolarda göstərilən hüquq mühafizə orqanlarının əməkdaşları haqqında dərhal ölçü götürülür. Daxili İşlər Nazirliyinin 102 saylı qaynar xətti operativliyinə və müraciətlərə baxılma səviyyəsinə görə əksər qurumlardan fərqlənir və qaynar xəttə edilən müraciətlər üzrə araşdırmalar bir çox hallarda ədalətli həll olunur. [74]

Daxili İşlər Nazirinin müavininin sözlərinə görə, Nazirlik mütəmadi peşə təlimləri zamanı öz əməkdaşlarına korrupsiyaya qarşı mübarizə və etik davranışa dair xüsusi təlimlər keçir[75]. Xüsusilə də 2012-ci ilin mayında Bakıda keçirilən Avroviziya öncəsi Daxili İşlər Nazirliyinin kadr siyasətində baş verən dəyişiklik aydın sezilir. Polis orqanlarına daha çox qadın əməkdaşların cəlb olunmasına başlanılıb, aşağı vəzifəli polis əməkdaşlarının (yol polisi, post-patrul xidməti) əhali ilə davranışında etiketə əməl etmələri, eləcə də onların fiziki hazırlığı artmaqdadır.

Polis əməkdaşlarının vəzifə təlimatları olsa da, xüsusən ictimai asayişin təmin edilməsi ilə məşğul olan polis əməkdaşları vəzifə səlahiyyətlərinin dairəsi barədə az məlumatlıdırlar.[76]

Yol hərəkətinin idarəedilməsini yaxşılaşdırmaq və şəffaflığını artırmaq məqsədilə hökumətin müəyyən cəhdləri olub. Sürücülük vəsiqəsi almaq üçün imtahanların şəffaflığını artırmaq, eləcə də yol qəzalarının və digər qayda pozuntularının araşdırılmasında korrupsiyanın qarşısını almaq üçün daha sərt nəzarət

---

[66] Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış kodeksi, 8 fevral 2008, www.genprosecutor.gov.az
[67] Daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi, 8 aprel 2005, www.mia.gov.az
[68] Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış kodeksi, 8 February 2008, www.genprosecutor.gov.az
[69] Daxili İşlər Nazirliyinin Şəffaflıq Azərbaycan təşkilatına 002-639-1214 nömrəli , 30 may 2014-cü tarixli məktubu
[70] Azerbaijan Country Profile 2013 by Business Anti-corruption Portal, ww.business-anti-corruption.com
[71] Country Reports on Human Rights Practices for 2012: Azerbaijan, report by US Department of State, www.state.gov
[72] http://silent.az/maraqli-yazilar/747-azerbaycan-polisi-qudurub-video.html
[73] http://www.youtube.com/watch?v=4c92d_mSLXw
[74] "Şəffaflıq Azərbaycan" təşkilatının ALAC məlumat bazası.
[75] Azərbaycan Respublikası Daxili İşlər Nazirinin Müavini, Baş Təşkilati-İnspeksiya İdarəsinin rəisi Fazil Quliyevin 002-659-1213 nömrəli, 28 iyun 2013 tarixli məktubu
[76] Müstəqil hüquqşünas - Samir İsayevin hesabat müəllifinə müsahibəsi, 22 Aprel 2014-cü il

ehtiva edən prezident fərmanı verilib[77]. Mətbuatın cəhdləri – Azad Azərbaycan 106.3 FM radiostansiyasının[78] yol hərəkəti qaydaları ilə bağlı canlı hüquqi məsləhətləri də bu məsələyə lazımi diqqəti cəlb edir. Polis orqanlarında korrupsiya hallarının hiss olunacaq dərəcədə azalması (Əgər 2010-cu Qlobal Korrupsiya Barometrində polis 5 baldan 3.6 bal almışdısa, 2013-cü ildə bu göstərcici 2.9 bala enib)[79] yol polisi sistemində həyata keçirilən islahatlar və əsas küçələr və yollarda "təhlükəsiz şəhər sistemi"-nin qurulması ilə əlaqəlidir ki, bunun köməkliyi ilə polislərin fəaliyyəti kameralar tərəfindən qeydə alınır. Bu təcrübə həmçinin digər qurumların da tətbiq edə biləcəyi şəffaflıq standartını müəyyən edir.

## Korrupsiyaya istintaqı: 50

*Hüquq mühafizə orqanları ölkədə korrupsiya hallarını nə dərəcədə aşkarlayır və təhqiq edir?*

Korrupsiya hüquqpozmaları ilə əlaqədar istintaq fəaliyyətinin və araşdırmaların aparılması Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin müstəsna səlahiyyətidir və bu hesabatın Antikorrupsiya Qurumları ilə bağlı bölməsində bununla bağlı ətraflı məlumat verilmişdir.

## Tövsiyələr:

- İstintaq, əməliyyat axtarışı, hüquq mühafizə orqanları üzərində nəzarət funksiyalarını məhkəmə ittihamlarının müdafiəsindən ayrılması ilə əlaqədar olaraq qanunvericiliyə dəyişikliklər edilməsi;
- istintaq fəaliyyəti (mülli təhlükəsizlik xarakterli - MTN-nə aidiyyəti olan işlər istisna olmaqla) bir dövlət orqanında mərkəzləşdirilməsi;
- cinayət işlərinin və cinayətkarlığın qeydiyyatı ilə bağlı prosedurlar təkmilləşdirilməsi.
- hüquqi mühafizə orqanlarının əməkdaşlarının və ailə üzvlərinin dövlət hesabına məcburi tibbi sığortası tətbiq edilməsi;
- Polis orqanlarının insan resursu sahəsində islahatlar davam etdirilsin, daha çox qadın əməkdaşlar, gənc mütəxəssislər işə cəlb olunsun, işə götürülən əməkdaşların fiziki və etik davranış qaydaları ilə bağlı təlimlərə cəlb edilməsi artırılsın; vətəndaş cəmiyyətinin üzvləri hüquq mühafizə orqanlarına işə qəbul üçün keçirilən müsabiqə prosesinin bütün mərhələlərinin monitorinqinə dəvət olunması;
- Vətəndaş cəmiyyəti üzvləri polis və prokurorluq tərəfindən idarə olunan qaynar xəttlərin fəaliyyətininin monitorinqini aparmağa dəvət edilməsi.

---

[77] Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında 26 dekabr 2012-il tarixli Prezidentinin Sərəncamı, www.president.az

[78] Azad Azərbaycan Teleradio Kampaniyasına məxsus106 fm radiosunun veb saytı , http://106fm.az/

[79] Global Corruption Barometer 2010 as compared to Global Corruption barometer 2013, publications by Transparency International, www.transparency.org